***Gülnar OSMANOVA***
***Filologiya üzrə fəlsəfə doktoru, dosent***
***AMEA Folklor İnstitutu***
***gulnar.osmanova05@gmail.com***
***ORCID: 0009-0000-1010-2949***
*https://doi.org/10.59849/2309-7949.2025.3.99*

# RƏSUL RZA POEZİYASI FOLKLOR KONTEKSTİNDƏ

**Açar sözlər:** Rəsul Rza, poeziya, ideya-bədii xüsusiyyətlər, folklor, mifopoetik ənənə, milli-mənəvi dəyərlər

**РЕЗЮМЕ**
**ПОЭЗИЯ РАСУЛ РЗЫ В КОНТЕКСТЕ ФОЛЬКЛОРА**

В исследовании творчества Расула Рзы, которое своим своеобразным стилем, поэтическими особенностями, составляет своеобразную страницу в азербайджанской литературе XX века, изучается в контексте обогащения от устной народной литературы. Как видно из фольклорных образов и мотивов, которые использует поэт, в этой поэзии проявляется глубокая и органическая привязанность к жизни, духовности народа.

В «Мян торпагам» (Я – Земля), «Чинар» (Платан), «Интигам» (Месть), «Вафа» (Верность), «Пянчарама дюшан ишыг» (Свет, упавший в окно), «Вахт вар икян» (Пока есть время), «Чинар омрю» (Жизнь чинара), «Рянглар» (Краски) и др. стихотворениях и в поэмах «Бир гюн да инсан омрюдюр» (И один день – человеческая жизнь), «Гызылгюль олмаяйды» (Не было бы розы) отражены жизнь народа, обычаи и традиции, система верований, которые мастер слова воспевает живыми красками. Применение народных выражений, пословиц, различных фольклорных мотивов и ставшим культом образов природы в лирике Расула Рзы, еще больше усиливают силу влияния воспетых поэтом идей. Сильны философский тон, философская гармония в поэзии мастера слова, которая включает в себя художественное отражение наших образцов устной народной литературы, поэтическое описание наших национально-духовных ценностей. Однако, глубина значения и содержания, художественно-эстетическая ценность произведений Расула Рзы, непосредственно впитанный в их основу фольклорный дух связаны с образом народного мышления.

**Ключевые слова:** Расул Рза, поэзия, идейно-художественные особенности, фольклор, мифопоэтическая традиция, национально-духовные ценности

**SUMMARY**
**RASUL RZA'S POETRY IN THE CONTEXT OF FOLKLORE**

The study examines the work of Rasul Rza, which constitutes a unique page in the 20th century Azerbaijani literature with its own style and poetic features, in the context of benefiting from oral folk literature. As can be seen from the folklore images and motifs used by the poet, a deep and organic attachment to folk life and folk spirituality is evident in this poetry.

In his poems "I am the land", "Chinar" ("Plane tree"), "Revenge", "Loyalty", "Light falling on my window", "While there was time", "The life of Plane tree", "Colors" and others, in his poems "One day is the life of a person", "There should not have been a golden rose", the folk life, ancient customs and traditions, and the system of beliefs that the artist glorifies with natural paints are reflected. The use of folk sayings, proverbs, various folklore motifs and cult images of nature in Rasul Rza's lyrics further enhances the impact of the ideas sung by the poet. The artist's

poetry, which contains the artistic expression of our oral folk literature examples and the poetic description of our national and spiritual values, has a strong philosophical tone and harmony. However, the depth of meaning and content, artistic and aesthetic value of Rasul Rza's works are directly related to the folklore spirit and folk way of thinking that are embedded in their content.
**Key words:** Rasul Rza, poetry, ideological and artistic characteristics, folklore, mythopoetic tradition, national and spiritual values

**Giriş.** Yazılı ədəbiyyatın inkişafında çoxəsrlik ənənələrə malik klassik irslə bərabər, həmişəyaşar bir sənət kimi özünü göstərən və əyani şəkildə özünü təsdiq edən milli folklor ənənələrinin rolunu inkar etmək olmaz. Belə ki, milli folklorla təmasda ədəbiyyat öz milli poetik formalarını yaratmış, xalqın ruhunu və xarakterini dolğun təcəssüm etdirmək imkanlarına yiyələnmişdir. Bu da ədəbiyyatın dil, obrazlı təfəkkür cəhətdən xəlqiliyini təmin etmiş, onun milli özünəməxsusluğunu daha da qüvvətləndirmişdir. Belə ki, yüksək bədii ümumiləşdirmələr, yüksək ideyalar, zəngin şair təxəyyülü, sənətkarın demək istədiyi fikir məhz xalq ədəbiyyatı fonunda, onun obraz, motiv, süjet və qaynaqlarından yararlanmaqla mühüm keyfiyyətlərə malik sənət əsəri kimi oxucu qarşısına qoyulur. Müasir poeziyada özünü göstərən folklorizmlər bədii mətnə daxil olaraq ona yeni ideya-estetik mahiyyət qazandırır, günümüzün problemlərinə xalq mənəviyyatı kontekstində baxmağa, məişətin bütöv bədii modelini təsvir etməyə imkan verir.

Çağdaş Azərbaycan poeziyasının yetişdirdiyi görkəmli sənətkarlardan biri də Rəsul Rzadır (1910-1981). Onun dərin və humanist mahiyyətli poeziyası onlarca xarici dillərə tərcümə olunaraq Vətənimizin hüdudlarından kənarda da özünə çoxlu pərəstişkar tapmış, böyük ədəbi və ictimai marağa səbəb olmuşdur. Rəsul Rza poeziyada novator kimi, milli şeirin, onun poetika sisteminin ardıcıl və yorulmaz islahatçısı kimi çıxış edirdi. Onun ən yaxşı əsərləri – lirik şeirlər və poemaları dərin insaniliyi, fəlsəfi lirizmi, fikir və emosiyalarının zənginliyi ilə seçilir.

Prof. Kamran Əliyevin təbirincə desək, "Rəsul Rza söz sənətimizin tale yaddaşını təmsil edən böyük sənətkarlarımızdandır. Ədəbiyyatda Rəsul Rza zirvəsinin öz kökləri ilə torpağa necə bağlandığını, göylərə nə qədər yüksəldiyini, bu zirvənin ətəklərində kimlərin olduğunu və bu zirvənin özünün hansı zirvələrlə baxışdığını, görüşdüyünü müəyyən etmək üçün onun poeziyasını ürəkdən sevmək və bu poeziyaya vurulmaq gərəkdir. Bəlkə də, hər hansı bir şairin və yaxud yazıçının yaradıcılığını, yaxud da istənilən bir ədəbiyyatşünaslıq problemini tədqiq edərkən həmin yaradıcılığı və həmin problemi sevmədən araşdırmaq mümkündür. Lakin Rəsul Rza yaradıcılığı bu münasibəti qətiyyən sevmir və bu münasibətdə olanları heç yaxın da buraxmır. Rəsul Rza irsini bədii fikir ardınca gedənlər, insanın bədii düşüncə və təfəkkür cizgilərini öyrənməyə çalışanlar, sənətkar beyninin quruluşundan xəbərdar olmaq istəyənlər öyrənməli və tədqiq etməlidirlər. Çünki Rəsul Rza poeziyası elə bir təfəkkür tərzinin əksi və inikası deməkdir ki, orada adiliklə qeyri-adilik, yaxınla uzaq, keçmişlə gələcək, həyatla ölüm qoşa yaşayır və qoşa böyüyür" (3, 214).

Rəsul Rza lirikasında fikir əsas keyfiyyəti, əsas ünsürü təşkil edirdi və bu fikir demək olar ki, bütün hallarda miqyaslı və ümumbəşəri fikirdir. Dünyanı, insan həyatını bütün rəngləri və boyaları ilə əks etdirmək, geniş və əhatəli göstərmək üçün şair yorulmadan axtarır, lirikanın yeni vasitələrinə müraciət edirdi. Onun poeziyasında lirik silsilənin bir janr kimi meydana çıxması da bu axtarışların maraqlı nəticələridir. "Rənglər" silsiləsi (1962) Rəsul Rza lirikasında ilk belə əsərlərdən biri oldu. Bundan sonra şair "Dəniz nəğmələri" (1965), "Rəngli yuxular" (1966), "Xəstələr evindən reportaj" (1974), "Səndən sənə" (1976) və s. silsilələrini yaratdı. Bu silsilələr içində "Rənglər" xüsusi qeyd olunmalıdır. Burada hər rəng, onun çalarları ilk baxışda adi bir boyadır. Lakin onlar insanda xatirələr və hisslər oyadır, düşüncələr doğurur, yaddaşın qatlarını üzə çıxarır. "Şair göstərir ki, xalq anlayışında qara – matəm, qırmızı – bayram, sarı – nifrət rəmzidir. O, rəng haqqında bu xalq anlayışını qəbul edir, lakin bildirir ki, rənglərin daha zəngin, mürəkkəb hisslər, xatirələr doğurmaq imkanı da vardır:

Rənglər könlümüzdən keçir,
İsti, sərin küləklər kimi.
Nəğmələr, sözlər, səslər
Qəlbimizə dolur
Müxtəlif rənglər kimi.
Rənglər xatirələr oyadır,
Duyğular oyadır.
Gördüyümüzdən artıq görmək istəməsək,
Hər rəng adicə boyadır (8, 227-228).

Akad. İsa Həbibbəyli yazır: "Məşhur "Rənglər" silsiləsi dünya sərbəst şeirinin Azərbaycanda yaranan böyük sənət şedevrlərindən biridir. "Rənglər" sərbəst şeirləri, ümumiyyətlə, XX əsr sərbəst şeirində yeni və böyük sənət hadisəsidir. Rəsul Rzanın "Rənglər" şeirləri ilə geniş mənada dünya sərbəst şeiri yeni rəng, yeni səviyyə qazanmışdır. Bədii düşüncənin və intellektual qavrayışın dərin siyasi-fəlsəfi mühakimə ilə vəhdətindən yoğurulmuş "Rənglər" şeir silsiləsində bütöv bir epoxanın düşüncəsi ifadə olunmuşdur. Hər misrası ciddi, düşündürücü, obrazlı düşüncələrdə əks-səda tapan bədii ümumiləşdirmələrdən yaranmış "Rənglər" sərbəst şeir silsiləsində ifadə edilən mətləblər və mühakimələr rəngindən asılı olmayaraq bütün insanlar üçün də müasir səslənir". (4, 7-8).

Şair rənglərdə də məhz "gördüyümüzdən daha artığı görmək" istəyir və silsilə də şairin bu istəyini əks etdirir. Şair belə hesab edir:

Rənglərin də musiqi kimi ahəngi var,
Ağrıların sevincin, ümidin də
rəngi var.
Düşündükcə açılır
əlvan səhifələri rənglərin.
Canlanır gözümüzdə rəngi

ömrün, mübarizənin,
qəlbin, nifrətin,
gecənin, səhərin
və insan taleyinin (8, 228).

Bu bədii prinsipə şair bütün silsilədə əməl etmişdir. Hər bir mütəfəkkir sənətkar kimi Rəsul Rza da dünyanı dərk etmək axtarışlarında bu dünyanı ən çox sevdiyi və tapdığı bir obrazın içində görür. Şair dünyanı rənglərin dili ilə görür və göstərir. 60-cı illərdə Azərbaycan ədəbiyyatı Azərbaycan cəmiyyətini böyük sürətlə qabaqladı. Bu qabaqcıl bədii düşüncənin təkan nöqtələrindən biri də Rəsul Rzanın "Rənglər" silsiləsi oldu. Düzünə qalsa, rənglər Rəsul Rza yaradıcılığına hələ 1928-ci ildə yazılmış "Səni düşünərkən" şeiri ilə daxil olmuşdur:

Ta uzaqlarda böylə saxlanaraq,
Mavi atlaz döşündə dalğaların.
Bəzən al, abı, pənbə, innabı, ağ,
Titrəyir yelkən, öylə çox narın.

Sonralar isə "Rənglər"ə qədər mərhələdə bu silsilənin cücərtiləri özünü aydınca göstərir. Şair hələ "Ərk qalası" şeirində hər şeyin qırmızı geyinməsini, hər yerə qan hopmasını və bundan doğulan qəzəbi təsvir etmişdir. "Qırmızı" şeirində isə şair aydınca yazır:

Qırmızı rəngdir qan,
Qırmızı rəngdir qəzəb və s.

Rəsul Rzanın bu silsiləsi ilk vaxtlarda kəskin tənqidlə qarşılandı, şair modernist cərəyanlara aludəçilik üstündə günahlandırıldı. Silsilənin çap olunduğu vaxt Kommunist partiyası modernizm əleyhinə mübarizəni şiddətləndirirdi, bu yolla sovet ədəbiyyatı və incəsənətində xarici meyillərin özünə yer tapmasının qarşısını almağa çalışırdı. Rəsul Rzanın da silsiləsi bu məqsəd üçün bəzi tənqidçilərin əlində vasitəyə çevrildi. Lakin bu silsilə böyük türk şairi N.Hikmət, rus şairi İ.Selvinski, çex şairi İ.Taufer, litva şairi E.Mejelaytis kimi böyük sənətkarlar tərəfindən yüksək qiymətləndirildi. N.Hikmət demişdi: "Rəsul Rza poeziyada nə isə yeni bir şey yaratmışdır. Bu, tamamilə yeni, orijinal bir yoldur. "Rənglər"də Rəsul Rza öz-özünü keçmişdir".

Rənglərin simvolikasına gəldikdə isə "ağ rəng" ilk dəfə səslənəndə insanın gözündə paklıq, təmizlik rəmzi kimi təsəvvür olunur. Ancaq ağ rəngin özünün rəng simvolikası əsərdə heç də ötəri xarakter daşımır. Bu element arxaik düşüncədəki şamançılıq ənənələri və sufi simvolikası ilə bağlanır. Ağ rəng şamanlarda ululuq, ədalət və güc mənaları daşıyırdı. Eyni zamanda ağ rəng ümid, inam, qalibiyyət, ehtiram, paklıq, xoşbəxtlik rəngidir. Qədim türklərdə sərkərdələr (Mete, Kül Tigin xaqan) döyüşə gedən zaman ağ at minərmişlər.

Rəsul Rza da "Rənglər" silsiləsində ağ rəngin sevinc və məhəbbət çalarlarını tərənnüm etmişdir. Ümumiyyətlə, rənglər şairin qəlbində təzə duyğular oyadır,

yaddaşı canlandırır və beləliklə, hər rəng sadəcə adi boya deyil; şairə görə onların sevinc, kədər, ümid, inam, təsəlli, məhəbbət, nifrət çalarları vardır:

Rənglər xatirələr oyadır,
Duyğular oyadır
Gördüyümüzdən artıq görmək istəməsək,
Hər rəng adicə bir boyadır (8, 228).

Başqa sözlə, şair rənglərin insan hissləri, insan əhvali-ruhiyyəsi, insanın yaddaşı ilə bağlı olduğunu demək istəyir və yalnız fırça vasitəsi ilə yox, söz vasitəsi ilə rəngin insanda oyatdığı təəssüratı, fikri, hissi ifadə etmək olar və mümkündür – həqiqətini bəyan etmiş olur.

"Rənglər" silsiləsində mifik təfəkkürdən qaynaqlanan, inanc və sınamaları ifadə edən təsəvvürlər üstünlük təşkil edir. Azərbaycan xalqının rəng simvolikası (yozumları) elə rənglərin aşıladığı assosiativ duyğular qədər rəngarəngdir. Rəsul Rza rənglərin folklor ifadəsini yaxşı bildiyindən onu poeziyaya gətirmiş və olduqca maraqlı şeir nümunələri yarada bilmişdir.

Ağ, qara, yaşıl, qırmızı;
hərəsi bir sınaqla bağlıdır.
Biri həsrətimizi xatırladır,
biri dərdimizi, biri arzumuzu.
Hərəsində bir məna arayıb,
bir səbəb görən var.
Kim bilir, kim sınamış,
kim bunu ilk dəfə demiş:
Qara-matəm,
qırmızı-bayram,
sarı-nifrət rəmzi imiş.
Kim bilir, keyfinin nə vaxtında,
kim olmuş, rəngləri belə damğalayıb,
belə ayıran (8, 227).

Folklorşünas alim Bəhlul Abdulla "Kitabi-Dədə Qorqud"un poetikası" monoqrafiyasında ağ rənglə bağlı yazır: "Ağboz atı Oğuzlar arasında minənlər çoxdur. Fikrimizcə, Ağboz atın abidədə xüsusi vurğu ilə tanıdılması da səbəbsiz deyil. Və bu səbəbin bir ucu "Ağboz"dakı "ağ" la bağlıdır. Bilindiyi üzrə, "ağ" rəng olaraq təmizlik, paklıq anlamlarına da gəlir. Tanrılara qurban olaraq ağ rəngli at kəsmək də elə bu görüşlə bağlıdır. Dəyərlidir ki, Manas anadan olanda atası Yaqub xan bu şərəfə Ağboz at qurban kəsir. Bundan savayı, ağ rəngin önəmli, qutsal, uğurlu olması da mübahisəsizdir. Odur ki, ağ rəngli at da həmişə uğur rəmzi olaraq qəbul edilmişdir. "Kitabi-Dədə Qorqud"dakı Ağboz atlar da bilavasitə uğurla, şad xəbərlərlə bağlı məqamlarda, ələlxüsus, daha çox yağı üstünə gediləndə minilir" (1, 54).

Rəsul Rza mifoloji motivlərə də müraciət etmişdir. Şair yaradıcılığında mifoloji obrazlara, mifik şərtiliklərə və rəmzlərə çox vaxt birbaşa deyil, dolayısı

ilə müraciət etsə də, nəticə etibarilə mif poetikası onun bir çox şeirlərində aparıcı estetik mövqe qazanır.

Yunanların mifoloji düşüncəsində Prometeylə bağlı miflər geniş yayılmışdır. İnsanların oddan məhrum olması nəticəsində Prometeylə Zevs arasında rəqabət haqqında miflərdə Prometey mədəni qəhrəman kimi yunanların mifoloji sistemində mühüm yer tutur. O, kosmik qəzadan ilk insan cütünün – Devkalion və Pirranın xilaskarı kimi də tanınır. Qədim yunan mifologiyasında ən maraqlı obrazlardan olan Prometey insanların xoşbəxtliyi uğrunda işgəncələrə məruz qalan əzabkeş obrazı kimi yaddaşlara həkk olunmuşdur. Allahların sözündən çıxaraq odu insanlara çatdıran Prometey Zevsin əmrinə görə dəhşətli işgəncə ilə cəzalandırılır: onu zəncirlə qayaya sarıyırlar. Bu azmış kimi Allahların əmri ilə hər gün bir qartal gəlib onun ciyərini dimdikləyir. İnsan oğlu Herakl olmasaydı, bəlkə də, Prometey dünya durduqca bu əzaba məruz qalacaqdı…

Şair "Prometey" şeirində qədim yunan mifinin motivlərindən istifadə edərək öz fəlsəfi fikirlərini maraqlı, orijinal formada çatdırmışdır.

Yuxuda gördüm Prometeyi.
Qollarından zəncirlənmişdi
sal qaya daşına.
Bir quzğun caynaqlarıyla
didirdi köksünü onun.
Prometey nə zəncir ağrısından,
nə köksünün
şırım-şırım yarasından
inləyirdi,
nə aman diləyirdi.
Gözlərində əks etmişdi
bir insan ocağının şöləsi.
Dodağında bir qələbə qımışığı vardı.
Prometey
iztirablarıyla bəxtiyardı! (7, 7).

Ta qədimdən bəri insanlar arasında sirr saxlamaq söhbəti son dərəcə mürəkkəb bir amil olub. Babalarımızın "dostunun da bir dostu var", "sirrini hər yetənə vermə", "sirr saxlamaq hər igidin işi deyil", "yerin də qulağı var" kimi müdrik misalları var. "İskəndərin buynuzu var" əfsanəsi bunun bariz nümunəsidir. Bu əfsanə istər nağıllarda, istərsə də yazılı ədəbiyyat nümunələrində bir motivə çevrilmiş, dahi şairimiz Nizami Gəncəvidən üzü bu yana zaman-zaman bu mövzuya müraciət olunmuşdur. Məsələn, Rəsul Rzanın "İkibuynuzlu İskəndər, sirli tütək, dolu ürək" adlı şeirində oxuyuruq:

Deyirlər, çox qədimdə bir gün
sirrini quyuya deyib dəllək,
sirrini deyib ki, partlamasın

sinəsində ürək.
Bir qarğı göyərib, qalxıb quyudan.
Bu qarğını kəsib
tütək qayırıb çoban.
Hamı bilir, danışmaz qarğı;
quru ola, yaş ola.
Ancaq bu qarğı danışıb.
Səslənib tütək.
Deyib: "Buynuzu var, İskəndərin".
Beləliklə, böyük sərkərdənin
sirri faş olub (7, 71).

Rəsul Rza poeziyasında cənub mövzusu, Təbriz həsrəti, Araz çayı ilə iki yerə parçalanmış vahid bir vətən obrazı da var. Şairin cənub şeirlərinə ("Təbrizim mənim", "Yaralı Təbriz" və s.) sakit ifadə tərzi yaddır, burada tərənnümlə birgə, bir qədər obrazlı desək, yanğına bənzər güclü bir yanğı hökm sürür. Rəsul Rzanın şeirlərindən biri "Aşıq "Yanıqlı"nın bayatıları" adlanır:

...Arazın qəlbi olsa,
Gecə-gündüz qan gedər.
...Axdın, o tay-bu tayda
Yandı dodaq, Arazım! (6, 76).

Yaxud:

Təbrizin yolları oyum-oyumdur,
Yanıq dağdan qalxan duman olaydım!
Həsrət könüllərdə ümid olmasam,
Heç olmazsa zəif güman olaydım! (6, 63).

Prof. Kamran Əliyev Rəsul Rza bədii təfəkkürünün analitik istiqamətlərini araşdırarkən qeyd edir ki, "Nigaran suallar" şeirində Təbrizlə "Qaragilə" mahnısı, "Təbrizim mənim" şeirində Təbrizlə bayatı, "Təbrizli dostuma" şeirində Təbrizlə durna qatarı yanaşı dayanır. Bu şeirlərdəki həmin yanaşmalar Təbrizin ovqatını, Təbrizin dünyasını ifadə etmək marağıdır" (3, 219).

Şair Kərkük mövzusuna da müraciət edir, silsilə şeirlərində bu kökə bağlılığı nəfəsi, ruhu, bayatılı nəğmələri ilə təcəssüm etdirir. "Uzaq ellərin yaxın töhfələri" başlıqlı məqaləsində "Kərkük xoyrat və manilərinin tanış olduğum nümunələri göstərir ki, istər düşünüş yolu, istər obrazlar silsiləsi, istər iztirab, həsrət, ümid, sevinc və kədərlərinin ifadə forması etibarilə İraqın türkdilli sakinləri azərilərə, xüsusən cənubi azərilərə çox yaxındırlar. Təbriz ləhcəsi Kərkük xoyrat və manilərinin, demək olar ki, əsas ləhcəsidir" (10, 89), – deyə şair yazır.

Sənətkarın "Yaralı Kərkükün bügünkü xoyrat və maniləri" şeirində folklor ab-havası, bayatı ahəngi sezilir.

Bir yanım Mosuldur
bir yanım Ərbil,

bəxtimə yazıldı
bu qara nisgil.
Çəkdiyim ağrılı
illər içində
nə bəd gəldi qanlı,
qadalı bu il.
Güneylər, ay quzeylər,
Dərdim odu buz eylər.
Gəldi ağır günlərim –
bir dərdimi yüz eylər.
Bağdaddan karvan gəlir,
Dərdli, pərişan gəlir.
Kimlər qurban kəsilib,
sularım al-qan gəlir (6, 70).

Rəsul Rza tez-tez nağıllara, onlardakı personajlara müraciət edərək fikirlərini məhz bu yolla çatdırmağa çalışmışdır. Belə personajlardan biri də Cırtdandır.

Azərbaycan nağıllarının tanınmış qəhrəmanı Cırtdan mifoloji əsaslı obrazdır. Tədqiqatçıların qənaətinə görə, Cırtdan obrazı od ruhunun folklorda gerçəkləşən formalarından biridir. Prof. Cəlal Bəydili qeyd edir ki, "Anadolu nağıllarındakı "Boyu bir qarış, saqqalı iki qarış" obrazının "Atəşli mərcimək" adı daşıması bu varlığın od ruhu ilə bağlılığından xəbər verir" (2, 79). Bəlkə, elə "Cırtdan" nağılında cırtdanın məhz itlər hürən tərəfə deyil, işıq yanan tərəfə getməsi onun bu xüsusiyyəti ilə bağlıdır. Şair "Cırtdan nağılı" şeirində deyir:

Biri vardı,
biri yoxdu,
bir Cırtdan vardı.
Günlər keçdi,
illər ötdü;
nə Cırtdan qocaldı,
nə nağıl qurtardı (6, 111).

"Ana, nağıl dünyasına apar məni" şeirində isə şair oxşama, layla və nağıl janrlarına müraciət edir. Xalqın təfəkkür süzgəcindən süzülüb gələn mənəvi dəyərlərimizi poetik dillə ifadə edərək keçmiş günlərə, uşaqlıq illərinə qayıdır.

Nə biləydim ki,
mən beşikdə yatanda,
yuxuda qovlayanda
qanadları əlvan kəpənəkləri,
gecəyarı sən,
"Dağda darılar, Sünbülü sarılar" deyə
mənə qurban verirdin
qoca qarıları (6, 107).

Şair şeirdə "Cik-cik xanım" nağılının süjetindən də istifadə edir, anasının ona danışdığı nağıllara yenidən qulaq asmaq, bununla da müasir dövrün problemlərindən uzaqlaşaraq sanki nağıllar aləminə düşmək istəyir.

Bircə dəfə gedə bilsəydim
Cırtdan nağılına.
Bu mümkün deyilsə, ana!
Nağılı çağır gəlsin bizə;
alçaq eyvanlı çiy kərpic divarlı,
yeddilik lampalı evimizə.
Mən də gəlim, sən də.
Sən otuz beş yaşında,
mən səkkiz.
Sən danış,
mən qulaq asım
Cırtdan nağılına;
radiosuz,
nigaran xəbərli
Vyetnamsız,
raketsiz (6, 110-111).

Rəsul Rza uşaq şeirləri də yazmışdır. Bunların bir qismi "Yuxuma gəlmişdi Ezop", digər qismi isə "Uşaq oyunları" adı altında qruplaşdırılmışdır. Uşaq şeirlərini də sərbəst vəzndə yazan şair təkcə uşaqları deyil, böyükləri də düşündürmüşdür. Bu şeirləri folklordan götürülmüş parçalar daha da zənginləşdirmiş, sadələşdirmişdir. Məsələn:

Bir oyundu məzəli:
Bir kürəkdə neçə yumruq,
Qışqırardıq dörd yandan:
– Əl üstə kimin əli?
– Filankəsin?
– Tapmadı! Hay tapmadı!
Qaldırın, vurun, yalandı! (6, 113).

Yaxud:

Balbalacan, batır keçi,
Qoz ağacı, qotur keçi,
Yırıl, yırtıl,
Su iç, qurtul (6, 114).

Sözün obrazlı və lakonik ifadəsi folklordan qaynaqlanır. Buna görə də Rəsul Rza şeirinin dili aydın və anlaşıqlıdır. Rəsul Rza xalq dili xəzinəsindən bacarıqla istifadə edən və ədəbi dilimizin tarixində dəsti-xətti olan sənətkardır. Onun yaradıcılığı təsdiq edir ki, şair dilimizə ehtiram və məhəbbətlə, böyük və isti

sənətkar qəlbi ilə yanaşmışdır. Şairin söz aləmindən süzülüb gələn fikirlər onun dil-üslub xüsusiyyətlərinin zənginliyindən xəbər verir.

Şair özü xatirələrində yazır: "İndi yaddaşımın səhifələrini varaqladıqca mən bir daha inanıram ki, mənim könlümə şeirə olan məhəbbətimin ilk qığılcımlarını anam atmışdır. Anam məndə klassik poeziya xəzinəsinə, həm də xalq yaradıcılığına dərin hörmət hissi tərbiyə etmişdir" (10, 35).

Nümunələrdən də göründüyü kimi, Rəsul Rza poetik kəşflər edərək, şeirlərində istifadə etdiyi xalq danışıq dilini yüksək sənətkarlıqla ədəbi dil səviyyəsinə yüksəltməyi bacaran ustad sənətkardır.

Şair bütün yaradıcılığı boyu tez-tez yuxu motivinə də müraciət edir. Məsələn, "Rəngli yuxular" silsiləsində deyir:

Rəngli yuxular görürəm:
qırmızı, sarı, yaşıl;
rəssam Toğrulun lövhələri kimi.
Rəng rəngə dirsəklənir,
rəng rəngə dolaşır.
Ağ-qara yuxuların
cansıxan söhbətlərə bənzəyir.
Bəzən acı xatirəyə,
bəzən şipşirin
qafıyəyə bənzəyir (8, 243).

Prof. Rüstəm Kamal şairin yaradıcılığını tədqiq edərək yazır: "Şair "mifik yuxular"da görür. Yuxusunda gah Prometeyi görür, gah Ezopla söhbətləşir. Görürük ki, qayaya zəncirlənmiş Prometeyin köksünü bir qartal didib parçalayır, amma onun gözlərində bəxtiyarlıq işığı var.

Yuxu personajlarının seçimi (Məryəm ana, Ezop, Prometey, İblis…) də maraqlıdır – böyük şairin xarakteri, yaşam fəlsəfəsi ilə (şüuraltı həqiqətləri ilə!) bağlı olmalıdır. "Yuxuda gördüm" ifadəsini şeirlərdə o qədər inamla işlədir ki, sanki Prometey, Ezop mifik personajlar deyil, həyatda tanıdığı gerçək insanlardır" (5, 30).

Sənətkarın dünya düzəni, dünya ahəngi fəlsəfəsində Yer və Göy öz sistemində, öz hisslərinin ardıcıllığı ilə görünür. Şairə məxsus olan Yerdəki ünvanlar bunlardır: "Mənimdir bu dəniz, bu yer, bu dağlar". Şairin yoluna düşən, işıq isə göydədir: "Ay işıqlı, göy ulduzlu, yol aydın".

**Nəticə.** Rəsul Rza Azərbaycan xalqının milli söz sərvətinə, o cümlədən folklora milli şüurun inkişafının nəticəsi kimi baxırdı. Belə ki, onun yaradıcılığında folklor önəmli yer tutur. O, folklora formal münasibət bəsləmir, həm folklor sərvətinin qoruyucusu kimi çıxış edir, həm də ondan yaradıcı şəkildə bəhrələnirdi. Şairin mübarizliyi ictimai və ədəbi fəaliyyətinin bütün sahələrini, xüsusən Azərbaycan dilinin və dilçiliyinin inkişafı ilə bağlı məsələləri, şifahi xalq ədəbiyyatının öyrənilməsi problemlərini əhatə edir. Şair daim milli şüurun formalaşması, milli

mənliyin dərki, dilimizin saflığı uğrunda mübarizə aparmış, folklor nümunələrimizin toplanılması və araşdırılması işini vacib hesab etmiş, yeniliyin ənənə üzərində inkişafının tərəfdarı olmuşdur.

Beləliklə, Xalq şairi Fikrət Qocanın sözləri ilə desək, "zaman göstərir ki, Rəsul Rza poeziyası əbədiyaşar poeziyadır, onun yaradıcılığı gündən-günə gəncləşərək, daima müasir qalır, hər zaman öz yeni oxucularını tapır".

**QAYNAQLAR**


1. Abdulla B. Kitabi-Dədə Qorqud"un poetikası. Bakı, "Elm", 1999, 224 s.
2. Bəydili (Məmmədov) C. Türk mifoloji sözlüyü. Bakı, "Elm", 2003, 418 s.
3. Əliyev K. Klassiklər, müasirlər. Əsərləri, 10 cilddə, IV cild. Bakı, "Elm və təhsil", 2018, 376 s.
4. Həbibbəyli İ. Xalq şairi Rəsul Rzanın sənət qüdrəti. "Ədəbiyyat məcmuəsi". Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Əsərləri. 2018, № 1, s. 3-10
5. Kamal R. İki şair yuxu görürdü... "Ədəbiyyat qəzeti". 10 mart 2018, s. 30
6. Rza R. Seçilmiş əsərləri. Beş cilddə. I cild. Bakı, "Öndər nəşriyyat", 2005, 304 s.
7. Rza R. Seçilmiş əsərləri. Beş cilddə. II cild. Bakı, "Öndər nəşriyyat", 2005, 320 s.
8. Rza R. Seçilmiş əsərləri. Beş cilddə. III cild. Bakı, "Öndər nəşriyyat", 2005, 256 s.
9. Rza R. Seçilmiş əsərləri. Beş cilddə. IV cild. Bakı, "Öndər nəşriyyat", 2005, 336 s.
10. Rza R. Seçilmiş əsərləri. Beş cilddə. V cild. Bakı, "Öndər nəşriyyat", 2005, 264 s.